

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 69 (23.711)

17 aprel 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Aprelin 16-da Bakının Pirşağı qəsəbəsində yenidənqurma tədbirlərinə start verilib və təmir-bərpa işlərinin təməli qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin göstərişinə əsasən 2019-cu ildən Bakı şəhərinin və Abşeron rayonunun qəsəbələrində xüsusi abadlaşdırma işlərinə başlanılıb. Balaxanı qəsəbəsinin timsalında uğurlu təcrübənin şahidi olmuşuq. Bibiheybət, Novxanı, Əmircan, Ramana qəsəbələrində də bu proses davam edir.

Abadlaşdırma zamanı tarixi abidələrin bərpası və aşkarlanması əsas məqsədlərdəndir. Pirşağıda, bu mənada, bərpa-konservasiya olunacaq abidələrdən biri Hacı Şahverdi hamamıdır. Bu hamam XIX əsrdə Pirşağı qəsəbəsinin sakini Hacı Şahverdi tərəfindən inşa olunub. Yerli əhali arasında o, "Qum hamamı" kimi tanınır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hacı Şahverdi hamamı ilə tanış olublar.

Dövlətimizin başçısı və birinci xanım qəsəbədə ağac əkiblər. Prezident İlham Əliyev Pirşağı qəsəbəsində yenidənqurma və təmir-bərpa işlərinin təməlini qoyub. Sonra dövlətimizin başçısı və xanımı qəsəbə ilə tanış olublar.

## Beynəlxalq əlaqələr genişləndirilir



***AMEA Naxçıvan Bölməsi və Türk Tarix Qurumu nümayəndələrinin iştirakı ilə onlayn tədbir olub. Giriş sözü ilə çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, tədbirin keçirilməsində məqsəd bölmənin qardaş ölkənin elmi müəssisələri ilə əlaqələrinin daha da genişləndirilməsi, səmərəli əməkdaşlığın yaradılmasıdır.***

Akademik rəhbərlik etdiyi elm ocağı haqqında dinləyicilərə ətraflı məlumat verərək vurğulayıb ki, AMEA Naxçıvan Bölməsi ulu öndər Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamına əsasən yaradılıb. Həmin dövrdən etibarən bölmədə 6 elmi-tədqiqat institutu – Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar və Bioresurslar institutları, Batabat Astrofizika Rəsədxanası və Əlyazmalar Fondu fəaliyyət göstərir. Bölmədə aparılan tədqiqatların əsas istiqamətini Naxçıvanın tarixi, ədəbi mühiti, təbii ehtiyatları, flora və faunasının hərtərəfli tədqiqi təşkil edir. Çoxşaxəli araşdırmalar aparan bölmənin Əlyazmalar Fondunda və Elmi Arxivində mühüm elmi əhəmiyyətə malik materiallar mövcuddur.

Bölmə sədri aparılan elmi tədqiqatlar və onların nəticələrindən ətraflı bəhs edərək diqqətə çatdırıb ki, 18 illik fəaliyyəti dövründə Naxçıvan Bölməsinin əməkdaşları tərəfindən fundamental nəşrlər, çoxsaylı kitab və monoqrafiyalar, dərs və metodik vəsaitlər, xəritələr və sair işıq üzü görüb. Bölmə alimləri indiyədək 34 patent və müəlliflik şəhadətnaməsi alıblar.

AMEA Naxçıvan Bölməsinin müxtəlif ölkələrin 20-dən artıq elm və təhsil mərkəzləri ilə səmərəli əməkdaşlıq etməkdə olduğunu vurğulayan akademik çıxışında yeni əməkdaşlığın Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun vasitəçiliyi ilə təməlinin qoyulduğunu bildirib. AMEA Naxçıvan Bölməsinin sədri Türk Tarix Qurumu ilə əməkdaşlığın elmi istiqamətlərindən, bu əlaqələrin vəd etdiyi gələcək səmərələrdən söz açıb.

Tədbirdə çıxış edən Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz hər iki qardaş ölkənin tarixi, mədəni və mənəvi birliyindən söz açıb. Çıxışda Türkiyə Cümhuriyyəti ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında davam edən məhsuldar əlaqələrdən, elm, təhsil və mədəniyyət sahəsindəki əməkdaşlıqlardan bəhs olunub. Yeni əməkdaşlığın faydalı olacağına inam ifadə edilib.

Türk Tarix Qurumunun rəhbəri, professor Birol Çətin, AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, dosent Emin Şıxəliyev, Türk Tarix Qurumunun nümayəndələrindən professorlar Hikmət Öksüz, Haluk Selvi, İbrahim Tellioğlu və Hüseyin Murat Yücel çıxışlarında iki elmi qurum arasındakı əməkdaşlıqdan danışıblar.

Onlayn tədbirdə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, iki qardaş ölkənin elm adamlarının iştirakı ilə tarixi faktların daha əhatəli tədqiqi, elmi əhəmiyyətli monoqrafiya və kitabların tərcüməsi və təbliği ilə bağlı bir sıra məsələlər müzakirə olunub, hər iki qurum arasında imzalanacaq elmi əlaqələrə dair protokolla bağlı fikir mübadiləsi aparılıb.

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il martın 2-də imzaladığı "Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınmasına başlanılıb.***

## Çağırışçılar müddətli həqiqi hərbi xidmətə yola salınır



Sərəncama uyğun olaraq 2003-cü ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycanın Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2021-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılır. Bununla yanaşı, 2020-ci il oktyabrın 30-dək "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları da 2021-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılır.

Silahlı Qüvvələrimizin şəxsi heyətlə komplektləşdirilməsi məqsədilə müəyyən edilmiş qrafik əsasında Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən dünən ilk çağırışçılar xidmət yerlərinə yola salınıblar.

Yola salınmazdan əvvəl çağırışçılara 44 günlük şanlı zəfər tariximiz və o tarixi yazan qəhrəmanlarımızın hərbi xidmət yolu nümunə göstərilib. Gənc əsgərlərə hərbi xidmət dövründə nizam-intizamlı və ayıq-sayıq olmaq, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnmək, əcdadlarının keçdiyi şərəfli yolu inamla davam etdirmək tövsiyə olunub.

Xatırladaq ki, gənc əsgərlər müvafiq qoşun növlərinin hərbi hissələrinə – təlim mərkəzlərinə göndəriləcək 3 ay müddətində orada təlimlər keçəcək, hərbin sirlərini öyrənəcək və sonra xidmətlərini təyin olunduqları yerlərdə davam etdirəcəklər.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən çağırışçıların müəyyən edilmiş qrafik əsasında xidmət yerlərinə göndərilməsi və nəzərdə tutulmuş xidmət müddətini keçərək ehtiyata buraxılmış müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyatda olan hərbi vəzifəlilərin qeydiyyatına alınması prosesi aprelin 30-dək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

## Keyfiyyət amili diqqətdə saxlanılır

***İstehsal və xidmət sferasının bütün sahələrində müasir keyfiyyət standartlarının tətbiqinə nail olmaq muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Bu çərçivədə əhalinin sağlamlığının və alıcılıq qabiliyyətinin qorunub saxlanılması, keyfiyyətli yerli məhsulların istehsalının təşviqi Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısına qoyulmuş mühüm vəzifələrdəndir.***

Ötən ay, ümumilikdə, məhsul nümunələrinin 85, o cümlədən qida məhsullarının 84 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə ciddi nöqsanlar aşkar edilməmişdir.

Yüksəkkeyfiyyətli bal və digər arıçılıq məhsulları gəlirliliyinə və faydalılığına görə aqrar sahədə mühüm yer tutur. Naxçıvanda bu sahənin davamlı inkişafı məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Baş Sığorta Agentliyinin və Dövlət Baytarlıq Xidmətinin nümayəndələri ilə birlikdə Babək şəhərində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüş keçirilmiş, iştirakçılara müvafiq standart üzrə bal məhsulunun tərkibində saxarozanın və nəmliyin yolverilən həddinə dair məlumatlar çatdırılmışdır.

Muxtar respublikada kənd təsərrüfatının digər sahələri kimi, meyvəçiliyin və tərəvəzçiliyin də inkişafına dövlət dəstəyi göstərilməkdədir. Mart ayında meyvə-tərəvəz məhsullarının 30 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış, nəticələrin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Muxtar respublika iqtisadiyyatında ailə təsərrüfatı modelinin dəstəklənməsi işi davam etdirilir. Bu məqsədlə ötən ay Ordubad rayonunun Dəstə kəndində Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, "Naxçıvan qovurması"nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı 20 ailə təsərrüfatına maarifləndirici bukletlər və "Naxçıvan qovurması" əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Ay ərzində muxtar respublika üzrə 10 ailə təsərrüfatına istehsal etdiyi məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılmasını, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə metodik köməklik göstərilmişdir. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün məhsullardan 43 halda nümunələr laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Alkoqollu içkilər istehsal edən 3 müəssisədə istehsal olunan arağın 3, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Həmçinin mart ayında təsərrüfat subyektlərinə 19 sertifikat, lisenziya alınması üçün 13 təsdiqedici sənəd verilmişdir.

Xarici bazarlara çıxış imkanlarının artırılması məqsədilə ötən ay da muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmiş, Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq məhsulların davamlı qaydada göndərilməsi təmin olunmuşdur.

Verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***



18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür

# Naxçıvan tarixi abidələr diyarıdır

***1982-ci ildən UNESCO-nun qərarı ilə hər il aprelin 18-i dünyada "Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" kimi qeyd olunur.***

Azərbaycan bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdəndir. Bu səbəbdən də xalqımızın tarixi qədim yaşayış məskənlərində və çoxsaylı abidələrdə öz əksini tapmışdır. Əcdadlarımızın yadigarı olan abidələr xalqın keçmişinin, qədim mədəniyyətinin göstəricisi, minilliklərboyu bu torpaqlarda yaşadıqlarını sübut edən daş yaddaşıdır.

Tarix və mədəniyyət abidələrini xalqımızın milli sərvəti hesab edən ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə tarixi-mədəni irsimizin qorunub saxlanılması üçün böyük işlər görmüş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcu kimi təsbit olunmuşdur. Bundan əlavə, 1998-ci il 10 aprel tarixində qəbul edilən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununda abidələrin qorunmasının dövlət təminatı, onların əhəmiyyət dərəcələri, tədqiqi və mühafizəsi öz əksini tapmışdır.

Ümummilli liderimizin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə tarixi abidələrimizin bərpası, qorunması və tədqiqi mühüm tədbirlər sırasına çəkilmişdir. Bir sıra tarixi abidələrimiz YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına salınmışdır. Milli mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

Azərbaycanın, o cümlədən dünyanın ən qədim yaşayış və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan min illərin tarixini yaşadan qədim yaşayış yerləri baxımından səyyahları, alimləri, tədqiqatçıları özünə cəlb edən bir məkan kimi tanınmışdır. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın hər daşının, hər qayasının tarixin canlı şahidi olduğunu bildirərək demişdir: ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir".***

Diyarımızın ərazisindəki mağaralar, qalalar, yaşayış yerləri, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələr bu torpaqda tarixin və mədəniyyətin qədimliyini göstərir. Gəmiqaya abidəsi Naxçıvanın ilkin yaşayış məskəni olmasını elmi və tarixi əsaslarla təsdiq etməklə xalqımızın ən qədim dövr incəsənətini, mənəvi və maddi mədəniyyət nümunələrini bu günə daşıyan əvəzsiz tarixi abidədir. Gəmiqaya daşları üzərində həkk olunmuş müxtəlif kompozisiyalı təsvirlər, həndəsi işarələr, piktoqrafik yazılar əcdadlarımızın dünyagörüşünün və təsəvvürlərinin, yaşam tərzinin tariximizin minilliklərin dərinliyindən bu günə çatdırılması baxımından dəyərli mənbələrdir. Naxçıvan ərazisində mövcud olan Qazma mağarası, "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Kilit mağarası, I və II Kültəpə, Xaraba Gilan, Quyulu dağ, Qarabağlar Türbə Kompleksi, Möminə xatın, Yusif Küseyir oğlu, Gülüstan türbələri, Əlincə qalası, Qızılburun, Qızqala, Ovçular təpəsi, Oğlanqala, Xələc, Naxçıvanqala, tarixi təbiət abidələrindən Haçadağ, Duzdağ, Batabat, Babək qalası, Dəvəboynu və yüzlərlə başqa abidələr keçmişimizi bu günə daşıyan tarixi yaddaşımızdır.




Son illərin araşdırması göstərir ki, Naxçıvan bəşəriyyətin əsas sivilizasiya mərkəzlərindən biri olmuşdur. Muxtar respublikanın ərazisi



müxtəlif dövrlərə aid maddi mədəniyyət abidələri ilə zəngindir. Diyarımızın bolsulu çayları, münbit torpaqları, əlverişli coğrafi mövqeyi, metal və qeyri-metal yataqları qədim əkinçi-maldar tayfaların bu ərazidə erkən məskunlaşmasını təmin etmişdir. Bu ərazi hələ Daş dövründən məskunlaşdırılmış, qədim əkinçilik mədəniyyətlərinin əsası qoyulmuşdur. Araşdırmalar təsdiq edir ki, Naxçıvanın indiki əhalisi min illər bundan əvvəl bu ərazidə məskən salan qədim tayfaların varisləridir.

Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin qorunması və bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" 2001-ci il 26 aprel tarixli Sərəncamına uyğun olaraq Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilmiş, bu mövzuda onlarla elmi məqalə və kitablar yazılmışdır. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamı ilə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin tədqiqində mühüm mərhələnin əsası qoyulmuş, 1200-dən çox abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Abidələrin həm qeydə alınmasında, həm də tədqiqində beynəlxalq ekspedisiyaların üzvləri də iştirak etmişdir. Amerika Birləşmiş Ştatlarının Corciya Universitetinin əməkdaşları ilə I Kültəpə, II Kültəpə, I Maxta Kültəpəsi, Ovçular təpəsi, Naxçıvantəpə Uçan Ağıl, Oğlanqala, Qızqala və digər abidələrdə qazıntılar aparılmış, Arpaçay vadisində olan tarix və mədəniyyət abidələri müştərək araşdırmalarla öyrənilmişdir. Araşdırmaların nəticələri ilə bağlı xüsusi internet saytı yaradılmış və bu saytlarda Naxçıvanın tarix və mədəniyyət abidələri haqqında məlumat verilmişdir. 2017-ci ildə aşkar olunaraq tədqiq edilməyə başlanılan Naxçıvantəpə yaşayış yeri qədim mədəniyyətimizin, o cümlədən Naxçıvan şəhərinin tarixinin öyrənilməsi üçün önəmli nəticələr vermişdir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Naxçıvan Dövlət Universitetinin əməkdaşları ilə birlikdə apardığı araşdırmalar zamanı dünya və ölkə əhəmiyyətli arxeoloji abidələr, kitabələr, memarlıq abidələri, o cümlədən onlarla hamam, körpü və məscidlər qeydə alınmışdır. Bu abidələr sırasında Şərur rayonunda qeydə alınan II Qız qalası, Babək rayonunun Buzqov kəndi yaxınlığında aşkar olunan Erkən Tunc dövrünə aid Hovuzlu yaşayış yeri, Kəngərli rayonunun Qarabağlar kəndi yaxınlığında yerləşən I Bəzəkli, II Bəzəkli, Çalxanqala kəndi yaxınlığındakı Qırmızıdaş qalaları, Ordubad rayonunun Bist və Əlihi kəndlərindəki körpüləri göstərmək olar.

Abidələr təkcə tarixin yaddaşı və yadigarları deyil, eyni zamanda maddi mədəniyyət nümunələridir. Ona görə də onların qorunması və gələcək nəsillərə çatdırılması olduqca vacibdir. Son illər qədim diyarımızda 70-dən artıq abidəyə ikinci həyat verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında", 2010-cu ildə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında", 2013-cü ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", 2015-ci ildə "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında", 2016-cı ildə "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" imzaladığı sərəncamlar tariximizin və mədəni irsimizin öyrənilməsi, təbliği baxımından mühüm əhəmiyyətə malik olan dövlət sənədləridir. Kəngərli rayonunda XII-XIV əsrlərə aid Qarabağlar Türbə Kompleksi, Şərur rayonunun Yengicə kəndində XVIII-XIX əsrlərə aid Şərq hamamı, Babək rayonunun Nehrəm kəndində XVIII əsrin yadigarı olan İmamzadə, Naxçıvan şəhərində XVIII əsrə aid İmamzadə Kompleksi, XVII əsrin memarlıq abidəsi olan Qazançı körpüsü bərpa olunmuşdur. Ötən il Naxçıvan şəhərində yerləşən XII əsrə aid Yusif Küseyir oğlu türbəsi də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı və qayğısı ilə əsaslı şəkildə bərpa edilmişdir. Bundan başqa, son illərdə qədim diyarımızda möhtəşəm türk-islam memarlığı abidələri olan məscidlər inşa olunaraq istifadəyə verilmişdir.

Abidələrimizin tədqiqi və mədəniyyətimizin beynəlxalq miqyasda təbliği istiqamətində də muxtar respublikada ardıcıl tədbirlər həyata keçirilir. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan", 2009-cu ildə "Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan", 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", 2012-ci ildə "Naxçıvan: ilkin şəhər və Duzdağ", 2016-cı ildə "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzularında beynəlxalq simpozium və konfransların keçirilməsi mühüm əhəmiyyət daşımışdır. Bu simpoziumlar alimlərimizin xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixinə, arxeologiyasına, etnoqrafiyasına və folkloruna dair tədqiqatlar aparılmasına, ekspedisiyaların təşkil olunmasına, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələrin nəşr edilməsinə əsaslı təkan vermiş, beşminillik tarixi əhatə edən Naxçıvan şəhər mədəniyyəti tədqiqat mövzusuna çevrilmişdir. Muxtar respublikada aparılan arxeoloji ekspedisiyalarda ABŞ, Fransa, Türkiyə, Macarıstan və başqa ölkələrin arxeoloqları iştirak edirlər. Dövlət qayğısının nəticəsidir ki, 2011-2019-cu illərdə Naxçıvan Muxtar Respublikası ərazisində 9 arxeoloji ekspedisiya, o cümlədən iki beynəlxalq ekspedisiya işləmişdir. Tədqiqat işlərinin nəticələri "Tüba-Ar", "Anatolia Antiqua", "Rossiyskaya arxeoloqiya", "İranica Antiqva" və sair kimi beynəlxalq əhəmiyyətli jurnallarda dərc edilmişdir. "Tüba-Ar" beynəlxalq dərgisində və Fransanın 16-dan artıq kütləvi informasiya vasitələrinin məlumatlarında Duzdağ dünyanın ən qədim duz mədəni kimi tanıdılmışdır.



Muxtar respublikamızdakı abidələrin öyrənilməsi və təbliği sahəsində də əhəmiyyətli işlər görülür. 2008-ci ildə "Naxçıvan Abidələri Ensiklopediyası"nın nəşr edilməsi yalnız Naxçıvanın deyil, bütövlükdə, Azərbaycanın mədəniyyət tarixində mühüm hadisədir. Ensiklopediya Naxçıvan abidələrinin öyrənilməsi baxımından əvəzolunmaz elmi mənbədir. Son illər nəşr olunan "Naxçıvan tarixi atlası", "Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Naxçıvan tarixi" çoxcildliyi, "Gülüstan türbəsi", "Əlincəqala", "Qarabağlar türbəsi", "Naxçıvan imamzadələri", "Naxçıvan hamamları", "Dədə Qorqud yurdu Naxçıvan: tarixi-coğrafi və etnoqrafik atlas", "Naxçıvan – türk-islam mədəniyyəti abidələri" və başqa çoxsaylı kitablar bu sahədə görülən işlərin ardıcıllığını göstərir. 2018-ci ildə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar Naxçıvandakı türk-islam mədəniyyəti abidələri ilə bağlı mühüm işlər görülmüş, "Naxçıvan buzxanaları", "Naxçıvan hamamları", "Naxçıvan türbələri" və digər kitablar nəşr edilmiş, "Naxçıvan: türk-islam mədəniyyəti" televiziya filmi çəkilmişdir.

Naxçıvanın abidələri bu qədim yurdun tarixi keçmişini özündə yaşatmaqla bərabər, həm də müasir dövrdə turizm potensialının artmasında əhəmiyyətli rol oynayır. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər baxımından səyahət turizminin ən ideal məkanlarındandır.

Muxtar respublikanın ərazisi müxtəlif dövrlərə aid tarix və mədəniyyət abidələri ilə zəngindir. Naxçıvan Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Dalmatəpə, Kür-Araz və Boyalı qablar mədəniyyətinin beşiyidir. Bu abidələr Azərbaycan türklərinin qədim dövrdən Naxçıvanın yerli əhalisi olduğunu təsdiq edən əvəzedilməz maddi mədəniyyət nümunələridir. Tarix və mədəniyyət abidələrinin tədqiqi alimlərimizin, onların qorunması isə ümumxalq işidir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar".***

**Vəli BAXŞƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü*

# Andrey Babuşkin: unudulmaz qəhrəman sərhədçi

***18 mart 1926-cı il. Sübhçağı. Gənc sərhədçilər – Andrey və həmyerlisi Gerasim Araz çayı kənarındakı torpaq səddin altında düzəldilən mağarada oturub dövlət sərhədini diqqətlə müşahidə edirdilər. Onların növbədə olduqları yer "Artlu-Təzəkənd" zastavasından 3 kilometr aralıda idi.***

Andrey böyük növbətçi sərhədçi olduğundan burada baş verəcək hər bir hadisəyə cavabdeh idi. O bilirdi ki, Arazın suyu az olan keçid yeri bura yaxındır. Artıq sərhədçilərin hər ikisi də ayaq səslərini aydın eşidirdilər. Birdən 3 nəfər dövlət sərhədi yaxınlığında göründü. Andrey əla hazırlıqlı sərhədçi olduğundan bildirdi ki, bunlar kəşfiyyat aparırlar. Dəstənin digər üzvləri onların işarəsini gözləyirlər ki, dövlət sərhədini təhlükəsiz keçsinlər. Elə o düşündüyü kimi də oldu. 20 nəfərlik dəstə göründü. Onlar mülki əhalidən oğurladıqları sürünü həmin keçiddən keçirmək istəyirdilər.

Andrey sərhədçi dostu Gerasimə pıçıldadı ki, hazırlaşsın. Qeyri-bərabərlik olsa da, döyüşəcəklər. Bu quldurların Şərur rayonuna keçməsinin qarşısı mütləq alınmalıdır. Əvvəlcə Andrey havaya xəbərdarlıq atəşi açdı ki, komandirləri Nikolay Laçınov və sərhədçi əsgər yoldaşları köməyə gəlsinlər.

Atəş başlandı. İki sərhədçi sərrast atəşlə dövlət sərhədini keçmək istəyənləri vururdu. Qarşı tərəf də sərhədçilərə atəş açmağa başladı. Qızğın döyüş gedirdi. Birdən Andrey çiynindən yaralandı. Amma buna baxmayaraq, ağrıya dözərək yenə də vuruşurdu. Sərhədçi dostu Gerasim onu quldurlardan qoruyurdu. Andrey tərəfə gəlmək istəyənləri bir-bir yerə sərirdi...

Andreyi ikinci dəfə sinəsindən ağır yaraladılar. O hiss etdi ki, artıq bütün gücünü itirir. Gerasim Şamayev tez onun silahını doldurdu ki, Andreyi tutmağa gələn quldurları vursun. İndi Gerasim təkbaşına quldur dəstəsi ilə vuruşurdu. Bir az keçmiş Andrey "ura" səslərini eşitdi, ancaq çoxlu qan itirdiyindən özünü toparlaya bilmədi.

Andrey Mixayloviç 1904-cü ildə Saratov quberniyasının Petrovski qəzasına daxil olan Kutino kəndində doğulmuşdu. Hərbi xidmətə çağırılmamışdan əvvəl evlənmiş və bir oğlu olmuşdu. Oğlu Aleksandrın (Saşanın) bir yaşı olanda, yəni 1925-ci ildə onu sərhəd qoşunlarına hərbi xidmətə çağırdılar və Cənubi Qafqaza Zaqafqaziya Dairəsinə göndərdilər. O vaxtlar sovet hökuməti təzə qurulduğundan onun cənub sərhədləri çox təhlükəli idi. Və ən təhlükəli yerlərdən biri də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yerləşən "Artlu-Təzəkənd" zastavasının ərazisində idi. SSRİ təzə yaradıldığından onun dövlət sərhədlərində yerləşən zastavalardakı sərhədçiləri tam ərzaqla təmin edə bilmirdilər. Zastavalarda şərait çox çətin idi. Hətta əsgərlərə şinellər də çatışmırdı.






Demək olar ki, təzəkəndlilər bacardıqları qədər sərhəd zastavalarına yardım edirdilər. Çünki onlar dövlət sərhədini mühafizə etməklə, həm də əhalini quldur hücumlarından qoruyurdular. Həmin vaxtlar sərhəd qoşunları Zaqafqaziya Dövlət Siyasi İdarəsinin tabeliyində idi.

1925-ci ilin payızında Andreyin göstəricilərini əsas tutaraq onu bu sərhəd zastavasına hərbi xidmətə göndərmişdilər. Hündürboylu, enlikürək, qaraqaşlı 22 yaşlı cavan oğlan həm də yaxşı idmançı idi. Hələ Tiflisdə təlim mərkəzində olarkən, sərhədçilərə lazım olan bilikləri və silahla yaxşı atəş açmağı əla öyrənmişdi. Doğulduğu kənddəki təbii mənzərələri çox sevirdi. Ancaq Voljski çölləri belə isti deyildi. Araz çayının isə hər tərəfi qamışla və yulğun, civir kolları ilə örtülmüşdü. Araz da sakit axırdı. İlk gündən etibarən Andrey Təzəkənd camaatının səmimiliyinə heyran oldu və azərbaycanca sözləri öyrənməyə başladı. Artıq onun dilindən şirin-şirin "çay", "su", "çörək" və sair sözlər eşidilirdi.

Naxçıvan 1918-ci ildən başlayaraq erməni daşnakları ilə vuruşmuşdu. Daşnaklar tutduqları hər yerdə əkinləri və tikililəri yandırmış, təsərrüfatı məhv etmişdilər. 1924-cü ildən başlayaraq yavaş-yavaş Şərur mahalında da həyat öz məcrasına qayıdırdı. Ona görə də zəhmətlə yaşayan əhalini, onların mal-qaralarını, heyvanlarını quldurlardan qorumağı zastava hərbçiləri özlərinə müqəddəs borc bilirdilər.

18 martda Andreylə birlikdə növbədə olan Gerasim Yakovleviç Şamayev də Kutino kəndində doğulmuşdu. 1925-ci ildə Andreylə birlikdə hərbi xidmətə çağırılmış və Zaqafqaziyaya göndərilmişdi. Onu da "Artlu-Təzəkənd" zastavasında yerləşdirmişdilər. O da evli idi. Yanvar ayında qızı Anna anadan olmuşdu. İndi gözlərinin önündə dostunu itirirdi. Köməyə gələn sərhədçilər 20 nəfərlik quldur dəstəsini məhv etdi və Andreyi xilas etmək üçün təcili zastavaya apardılar. Amma Andrey yolda keçindi. Zastavada olan sərhədçilər və Təzəkənd camaatı kədər içində idi. Qərara alındı ki, əfsanəvi igid döyüşçünü torpağa tapşırmaq üçün o vaxtlar Şərurun ən böyük kəndi olan Yengicəyə aparsınlar. Yengicə kəndi "Artlu-Təzəkənd" zastavasından 10 kilometr uzaqlıqda yerləşdiyindən Andreyin cənazəsini at arabasında apardılar. Orada dəfnlə bağlı olan işləri yerinə yetirdikdən sonra Andreyi Yengicədə kolxoz klubunun qarşısında olan meydançada dəfn etdilər. Dəfn mərasimi çox izdihamlı keçdi. Rayon rəhbərləri və 41-ci Naxçıvan sərhəd dəstəsinin rəisi də dəfndə iştirak edirdilər. Andreyin qəhrəmancasına həlak olması ildırım sürəti ilə bütün sərhəd zastavalarına yayılmışdı. 9 aprel 1926-cı ildə Zaqafqaziya MİK-in 124 №-li əmri ilə "Artlu-Təzəkənd" zastavasına Andrey Babuşkinin adı verildi. Bu, SSRİ-nin dövlət sərhədində ilk zastava idi ki, ad daşıyırdı. Zastavanın həyətində heykəltəraş Məmmədovun böyük ustalıqla Andreyin xatirəsinə hazırladığı büst qoyulmuşdu. Baxışları uzağa dikilən və çox ciddi görkəmli olan gənc sərhədçi Andrey, sanki zastavaya gələn hər bir adamla danışırdı. Diqqətlə baxanda hiss edirdin ki, o nigarançılıqla öz doğmalarını da gözləyir. Sərhədçi dostu Şamayevin dediyinə görə, Andreyin son sözü doğmalarına ünvanlanıb: "Saratova ...yazarsan ki, döyüşdə həlak oldu..."

Yeri gəlmişkən deyək ki, həyat yoldaşı Nadejda da onu çox sevirdi və intizarla yolunu gözləyirdi. Bunu məktublarında Andreyə yazırdı. Amma müqəddəs borcunu yerinə yetirərkən qəhrəmanlıqla həlak olan Andreyi Şərur torpağı öz qoynunda yaşatdı. Andreyin yoxluğuna dözə bilməyən və Şərura gəlmək imkanı olmayan Nadejdanı Andreyin atasının evində ölü tapdılar. Balaca oğlu isə anasının yanındaca sürünürmüş. Həmin gün Andreyin və Nadejdanın ata-anaları 25 kilometrlikdə yerləşən bazara getmişdilər. Qayıdanda isə onu sağ görmədilər.

Andreyin ata-anası İkinci Dünya müharibəsindən əvvəl Orta Asiyaya köçürlər. "41-ci Naxçıvan sərhəd dəstəsi"nin tarixini araşdıranlar yazırlar ki, Andreyin oğlu Aleksandr təyyarəçi imiş və İkinci Dünya müharibəsində həlak olub. Təəssüf ki, onun haqqında ətraflı məlumatın və fofoşəklinin də tapılmaması yazırlar. Özləri də qeyd edirlər ki, bütün bunlar hamısı kədər doğurur.

Andreylə birlikdə Araz sahilində sərhəd pozucuları ilə döyüşən digər sərhədçi Gerasim Şamayevin də taleyi faciəli olub. Hərbi xidmətdən sonra doğma Kutinoya qayıdan Gerasimin 1938-ci ildə ikinci qızı Valentina doğulub. Müharibədən əvvəl Şamayevlər Özbəkistanın paytaxtı Daşkəndə köçüb. İkinci Dünya müharibəsi başlayanda orduya çağırılıb. 3 iyun 1943-cü ildə Kursk qövsündə gedən ağır döyüşlərdə həlak olmuşdur.

Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda Yengicə kəndinin mərkəzində dəfn olunan Andrey Babuşkinin məzarı ətrafında gül-çiçək əkilib və həmişə sərhədçilər, məktəblilər bayram günlərində onun məzarı önünə əklil qoyublar.

Naxçıvan Muxtar Respublikasının bütün sakinlərinin, o cümlədən yengicəlilərin də cəsur sərhədçi Andrey Babuşkinə dərin rəğbətləri olub. Çünki o dövlət sərhədinin toxunulmazlığı uğrunda döyüşüb həlak olmuşdur. Onun adını daşıyan zastava həmişə nümunəvi xidməti ilə seçilib. Hərbi xidmətə yeni başlayan hər bir gənc sərhədçi onun kimi dövlət sərhədini qorumağa and içib. Axı vətən sərhəddən başlayır.

Vətən qarşısında öz borcunu sonadək qəhrəmanlıqla yerinə yetirən Andrey Babuşkin haqqında "Poqraniçnik Zakavkaziya" ("Zaqafqaziya sərhədçisi"), "Poqraniçnik Azerbaydjana" ("Azərbaycan sərhədçisi") və digər hərbi qəzetlər ətraflı məqalələr çap etmişlər.

"41-ci Naxçıvan hərbi dəstəsi"nin zəngin tarixi vardır. Hələlik tam araşdırılmasa da, araşdırılan səhifələrdə əfsanəvi döyüşçü-sərhədçi Andrey Babuşkin haqqında ürəkdolusu yazılara rast gəlinir. Bu məqalələrin çoxunu azərbaycanlı hərbi jurnalistlər yazmışlar. Hətta Andreyin adını daşıyan zastavanın həyətində onun büstünü ilk dəfə azərbaycanlı heykəltəraş hazırlayıb. O büst indi Rusiyanın paytaxtı Moskva şəhərindəki Sərhədçilər Muzeyində saxlanılır. "Poqraniçnik Azerbaydjana" qəzeti 1944-cü ilin 15 aprel nömrəsində yazırdı: "17 mart 1944-cü ildə Andrey Babuşkinin adını daşıyan zastavadakı binanın fasadı üzərində Naxçıvan sərhədçi dəstəsi tərəfindən xatirə lövhəsi asılmışdır. Orada yazılmışdır: Bu zastavada qırmızı döyüşçü Andrey Babuşkin xidmət etmişdir. SSRİ-nin dövlət sərhədinin müdafiəsində 18 mart 1926-cı ildə qəhrəmancasına həlak olmuşdur. Ertəsi gün onun məzarı önündə sərhədçilərin kolxozçularla və rayon rəhbərləri ilə birlikdə mitinqi olmuşdur. Sərhədçi əsgərlər and içmişlər ki, Vətənimizin sədaqətli oğlunun adını həmişə müqəddəs tutacaq və sərhədi Andrey Babuşkin kimi mərdliklə və cəsurluqla qoruyacaqlar".

Belə nümunələr çox göstərmək olar. Bütün bunlar hamısı sərhədçi-döyüşçünün hətta çətin müharibə illərində də unudulmadığının canlı sübutudur. Biz Andrey Babuşkinlə bağlı axtarışlar apararkən aşkar oldu ki, hər il Yengicə kəndində 18 martda onun məzarı önündə sakinlər tərəfindən tədbir keçirilib. Təəssüflər olsun ki, qəhrəman sərhədçi Andrey Babuşkinin məzarı 1990-cı ildə xalq cəbhəsi üzvləri tərəfindən dağıdılıb.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığı ilə bu il Andrey Babuşkinin məzarının yeri yenidən aşkarlanmış və bərpa olunmuşdur. Qəhrəman sərhədçi Andrey Mixayloviç Babuşkinin Naxçıvan Muxtar Respublikasında, Şərur rayonunun Yengicə kəndindəki məzarı üzərində mərmərdən xatirə lövhəsi qoyulmuşdur.*

**Musa QULİYEV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru***

*Naxçıvanda 18 aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə müxtəlif tədbirlər keçirilib.* və tariximizin qorunmasında müstəsna rol oynamış, Naxçıvan çoxsaylı tarixi abidələri ilə Azərbaycanda turizmin əsas məkanlarından birinə çevrilmişdir. Sonra mövzu ilə bağlı çıxışlar olub.

## Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd edilib

AMEA Naxçıvan Bölməsində bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxışında Azərbaycanın zəngin tarix və mədəniyyət abidələrindən bəhs edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamını xatırladan bölmə sədri ölkəmizdə, eləcə də muxtar respublikada tarix və mədəniyyət abidələrinə göstərilən dövlət qayğısından danışıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Naxçıvan tarixi abidələr diyarıdır" mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, Azərbaycanın ən qədim bölgələrindən biri olan Naxçıvanda tarix və mədəniyyət abidələrinin qorunması həmişə diqqət mərkəzində olmuşdur. Məruzədə vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvanda yerləşən tarix və mədəniyyət abidələrinin qorunması və bərpası ilə bağlı imzaladığı Sərəncamlar mədəni irsimizin

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşlarının və Naxçıvan Dövlət Texniki Kollecinin tələbələrinin iştirakı ilə keçirilən onlayn tədbirdə mərkəzin elmi katibi Nihad Tarverdiyev ölkəmizdə, eləcə də muxtar respublikamızda mövcud olan yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, dövlətin birbaşa diqqəti və qayğısı ilə həyata keçirilən tədbirlər, həmçinin təşkil edilmiş yerli və xarici arxeoloji ekspedisiyalar nəticəsində muxtar respublika ərazisində yeni tarixi abidələr aşkar edilərək tədqiq olunmuşdur.

Naxçıvan Dövlət Universitetində təşkil olunan tədbiri giriş sözü ilə açan Tarix-filologiya fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Rəsul Bağırov qeyd edib ki, göstərilən yüksək dövlət qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür.

Tədbir çıxışlarla davam edib.

**Xəbərlər şöbəsi**

## Əməkdaşlığa dair memorandum imzalanıb

"Naxçıvan" Universiteti ilə Polşa Respublikasının Lodz Humanitar və İqtisadi Elmlər Akademiyası arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Ali təhsil müəssisələri arasında beynəlxalq əlaqələrinin genişliyinə görə fərqlənən universitet bu əlaqələri daha da artırmaq istiqamətində növbəti addım atıb. Dünya təhsil sisteminin yaxından öyrənilməsi, xarici mütəxəssislərin yerli kadrlarla əlaqələndirilməsi, onların təcrübəsindən faydalanmaq, tələbə mübadiləsi və digər məqsədlər daşıyan bu addım həm də universitetin nüfuzunun daha da artmasına, cəmiyyətə daha peşəkar, dünyagörüşlü gənclər qazandırmağa xidmət edir.

Xatırladaq ki, 5 il müddətinə imzalanan memorandumda, əsasən, iki müəssisə arasında tələbə-müəllim mübadiləsinin həyata keçirilməsi, birgə elmi fəaliyyət, beynəlxalq konfrans və tədbirlərin təşkili nəzərdə tutulur.

Qeyd edək ki, bu razılaşma bir çox ölkələrin ali təhsil, elm ocaqları ilə əməkdaşlıq edən universitetin Polşa Respublikası ilə ilk müqaviləsidir.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Məşğələlər olub

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə Uzlaşma Planı"na əsasən bölük, batareya komandirləri və müavinləri ilə komandir hazırlığı sistemində məşğələlər keçirilib.*

Komandir hazırlığı məşğələlərində əsas diqqət zabitlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, bölmələrin idarə edilməsi üzrə bacarıqlarının və komandir keyfiyyətlərinin təkmilləşdirilməsinə yönəldilib. İlk olaraq zabitlərə sıra baxışı keçirilib və məşğələlərə hazırlıqları yoxlanılıb. Praktik məşğələlər zamanı zabitlərə müdafiə döyüşü üzrə hava hücumundan müdafiə, raket-artilleriya və tank bölmələrinin fəaliyyəti nümayiş olunub.

Qarnizonun Təlim-Tədris Mərkəzində zabitlərə hərbi topoqrafiyadan, hüquq və mənəvi-psixoloji hazırlıqdan nəzəri dərslər keçilib. Komandir hazırlığının sonunda zabitlərin ümumqoşun, ixtisas, topoqrafiya və fiziki hazırlıq səviyyələri yoxlanılıb.

**Kənan CƏLİLOV**




# Dörd fəslin ən gözəli – NAXÇIVAN



***Qarşınızda bir kitab var. İlk səhifədən sizi özünə bağlayacaq bu kitab dünyanın ən qədim, ən gözəl və ən cazibədar bir diyarından – Naxçıvandan danışır. Fotoların dili ilə həmsöhbət olduqca kitabda bir-birindən maraqlı hekayələrlə tanış olacaqsınız. Zəngəzurdan Xan Araza, Sədərəkdən Ordubada qədər səyahətə çıxdığınız zaman sirli-sözlü dağların bitib-tükənməyən gözəllikləri, bu torpaqlarda əbədi məskən salmış qalaların əzəməti, xalı naxışlı çəmənlərin qovuşan rəngləri və çılpaq qayaların sərt sıldırımları bu hekayələrin romantik qəhrəmanları kimi Naxçıvanın dörd fəslinə bələdçilik edəcək.***

Bir səyyah nəzərində Naxçıvanın çox qeyri-adi görüntülərini tuta bilmək üçün bir cüt göz yetməz. Ağ topa buludlar arasında Günəşlə qucaqlaşan masmavi səmanın hərarətini, Batabatın yamyaşıl sonsuzluğunda nazlanan çəmən mehinin sərinliyini, Əlincənin yorğun yoxuşlarında qanad çalan qartalların cəsarətini, Gəmiqayadan Ağrıyadək uzanan möhtəşəm panoramın genişliyini duya bilmək üçün həssas qəlbli şair, incə ruhlu rəssam və duyğusal bir fotoqraf olmaq gərəkir. Naxçıvan təbiətinin zəngin harmoniyasını, rənglərin kontrastları ilə dolu bütövlüyünü və insan əli möcüzələrini özündə əks etdirən belə dəyərli işlərdən biri də peşəkar fotoqraf Hüseyin Bağırovun böyük zəhmət hesabına ərsəyə gətirdiyi “Naxçıvan – dörd fəsil” adlı mətnli fotoalbomudur.




*Bəyaz donlu Batabat*

Son illərdə Naxçıvanın artan turizm potensialına çox mühüm töhfə olacaq bu kitabın dünya turistlərinin qədim diyara olan marağının daha da genişləndirilməsində xüsusi əhəmiyyəti vardır. Belə ki, kütləvi tirajla, yüksək poliqrafik keyfiyyətdə çap olunmuş kitabda Azərbaycan və ingilis dillərində təqdim olunan unikal fotoşəkillərin qısa məzmunu da verilmişdir ki, bu da Naxçıvanın təbii və tarixi-mədəni zənginlikləri haqqında real təsəvvürlər yaradır. Akademik İsa Həbibbəylinin ön söz müəllifi olduğu kitab, bu mənada, Naxçıvanda yaşanan dörd fəslin özünəməxsus bənzərliklərini fotoların dili ilə açmaqda ən yaxın bələdçidir. Kitab Emin İsmayılovun dizayner məharəti və Laura Quliyevanın işləmiş olduğu mətnlərin dolğunluğu ilə daha dərin məna qazanaraq onunla tanış olanlarda zəngin təəssürat formalaşdırır.



*Dağların xınalı sakini*

İstər yerli, istərsə də əcnəbi turistlər Naxçıvanı çox sevirlər. Bir turizmçi kimi onu mütləq qeyd etməliyəm ki, Naxçıvanla tanışlığın hələ hava gəmisinin pəncərələrindən açılan möhtəşəm mənzərədən başlandığını dəfələrlə turistlərdən eşitməyin özü son dərəcə qürurvericidir. Səmadan baxdıqda gümüş kəmər kimi qıvrılan Araza doğru ətəklənən Naxçıvan dağları, sanki əl-ələ tutmuş balaca uşaqlar tək qonaqlarını qarşılamağa çıxır. Bu məziyyət müəllifin kamerasının məhsulu kimi kitabda özünə xüsusi yer tutub. Naxçıvan müqəddəslər torpağıdır. Odur ki, hələ uzaqlarda müqəddəs Əshabi-Kəhf, Nuh Peyğəmbərin ayaq izləri haqqında eşitmiş olanlar “Naxçıvan – dörd fəsil” kitabının səhifələri arasında, sanki yeni dünyanın yeddi möcüzəsinə bir daha şahidlik edəcək, zamanın dərinliklərinə virtual səyahət edə biləcəklər.

Naxçıvan təbiətinin toxunulmazlığı bu gün tamamən ilkin görüntüsünü itirmiş o biri dünyanın sakinləri olan əcnəbi turistlərin ən çox heyranlıqla izlədiyi mənzərələrdəndir. Kitab təbiətlə mədəniyyətin uğurlu harmoniyasını, qorunan ekosistem və unikal biomüxtəlifliyin canlı nümunələrini əks etdirən çox sayda belə mənzərələrlə zəngindir. Qeyri-adi landşaftla yanaşı, Naxçıvandakı sərt iqlimin rəng çalarlarını, fəsillərin xronologiyasının yaratdığı təbii simfoniyanı uğurlu fotoinikas etdirməklə müəllif kitabda əsl festival havası yaratmağa nail olub. Bu baxımdan kreativ əməyin məhsulu kimi müəllifin fantaziyası da oxucunun gözündən qaçmır.

“Naxçıvan – dörd fəsil” kitabı olduqca informativ olub, əks etdirdiyi fotoların, mətnlərin məzmununa görə hər biri bir esse mövzusu dəyərindədir. Kitab Naxçıvanın təbiəti, tarix və mədəniyyəti, onun yerləşdiyi coğrafi mövqeyi və şübhəsiz, turizm potensialının tədqiqi ilə məşğul olanlar üçün dəyərli mənbədir. Muxtar respublikamızda turizmin inkişafı üçün qarşıya qoyulmuş vəzifələrin icrasına qiymətli töhfə olmaqla kitabda toplanmış fotoşəkillər turistlərin Naxçıvana səyahətlərinin əsas motivasiyaedici amillərindən olmaq gücündədir. Və nəhayət, bu kitabın həm də bir vətənpərvərlik örnəyi kimi hər bir Azərbaycan vətəndaşında yurdumuzun gözəlliklərini sosial şəbəkələrdə paylaşmaq yolu ilə təbliğ etmək mənəvi borcu aşılamaqda da nümunəvi çəkisi vardır.

**Əli CABBAROV**







*Culfa dağları*

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 323